Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti: "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"**

# Bəxtiyar Vahabzadə: ümummilli vəhdət nidası

**(I məqalə)**

*Azərbaycan xalqının mütəfəkkir oğlu Bəxtiyar Vahabzadənin humanist fəlsəfi poeziyası milli mədəniyyətimizi dünya mədəniyyəti ilə bağlayan ən etibarlı, çoxtağlı körpülərdəndir. Bəxtiyar Vahabzadə lap gəncliyindən xalqın ictimai ideallarına həyan duran və fikrinin şah damarını tutan şairlərdən olub. Xalqın mənəvi həyatında baş verən dəyişmələr onun poeziyasında qat-qat, mərhələ-mərhələ əksini tapıb. Xalq poeziyasının, xalq bədii sənətinin Bəxtiyar üslubu formalaşıb. Bu üslub həm də ənənəyə sadiqlik haqqına yetib. Bu sənətin gücünə milli şerin ictimai-substansial çəkisi yüksəlib. Həmişə əsl sənətə xas olan ahəngdar yetkinləşməni də Bəxtiyar şeirinin təkamülündə müşahidə etmişik.*

Bəxtiyar Vahabzadəni "kəşf etmək" Azərbaycan tənqidi üçün o qədər də çətin olmamışdı. Çünki "şəxsiyyəti yaradıcılığında qabarıq təzahür edən şair" (Yaşar Qarayev), təbii ki, "dərinlik" xatirinə qəsdli azdırmalara, mətləbi dolaylara salmağa heç bir ehtiyac duymur, fikrin aydınına, durusuna meyil edir, yaradıcılıq qüvvəsini sözün canını verməyə yönəldir, sözü yiyəsinə çatdırmağa çalışır. Ədəbiyyata nabələd adam da onun şeirindən öz payını götürür. Ancaq Bəxtiyar şeirlərində ən çox xalqın kişisinə - qeyrətlisinə, narahatına müraciət edir. Çünki bilir ki, xalqın mənəvi simasını müəyyənləşdirən onlardır. Yadlaşanlarsa həmişə onun nifrət oxuna tuş gəlir:

***"Ey öz doğma dilində danışmağı ar bilən,***
***fasonlu ədabazlar,***
***Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.***
***Bunlar qoy mənim olsun,***
***Ancaq Vətən çörəyi sizlərə qənim olsun."***

Bəxtiyar Vahabzadə bu şeiri 50-ci illərin əvvəllərində yazıb. Amma görün həmin ovqatdan şairin hətta son şeirlərinə necə sönməz işıq seli axıb gəlir.

Vətənin əbədiliyi ideyası Bəxtiyar poeziyasının özəyini təşkil edir:

***"Dünya quru bir səs,***
***Qəm çəkməyə dəyməz.***
***Yüz-yüz itən olsun,***
***Min-min də bitən var.***
***Şükr eyləyəlim ki,***
***Bizlərdən həm əvvəl,***
***Həm sonra Vətən var."***

Misralar qaya parçaları kimidir, qəfildən qışqırıb, qəfildən də susur. Sanki təbiət özü təsdiq edir ki, Vətən əbədidir. Şeirdəki qətilik, sonluluq, cingiltili səslənmə ruhumuza doğma olan bir harmoniya yaradır.

Torpaq üzərində doğma qan qardaşlarının bir-birinə həyanlığı ("Mənim ürəyimi qanatsın gərək. Sənin dırnağına dəyən çırtma daş") vətəndaşlıq deyilən irsi duyğunun gerçəkləşməsidir. Otun göyərməsi, ağacın çiçək açması, torpağın qızması necə təbiidirsə, insanın qanında, canında vətəndaşlıq hissinin yaranması da eləcə olarıdır. Hissdən borc, borcdan da fədakarlıq törəyir. Bu hiss qaynayaraq insanın Vətən uğrunda qurban getməsi anınacan zilə çəkilir:

***"O bizi yaradan,***
***Biz ona bəndə***
***Yaradan uğrunda ölməyə gəldik."***

Allaha qurban olmaq üçün Sina dağına gedən insan (ülviyyətə səcdə) nəhayət, ayaq basdığı torpağın onun əcdadları, özü, çağdaşları və övladları üçün əbədi yaşayış yurdu olduğunu, o yurdun qan-can bahasına qorunma labüdlüyünü bütün varlığıyla dərk edərək Yaradan Vətən - Allaha qurban gedirsə (həqiqət önündə pərəstiş), demək, yerdən-göyə daha möhkəm sığınacaq var! Bir-birindən nur almış ömürlər silsiləsi Vətənin maddi və mənəvi varlığını yaradır. "Gəlimli-gedimli dünya" var, ancaq gəlimli-gedimli Vətən yoxdur... Bura yalnız Qalmaq üçün Gəlirsən! Ölməmək üçün doğulursan!

Şair Azərbaycanın bölünməsi kimi tarixi faciənin köklərini axtara-axtara gedib Səhl-Sumbat satqınlığına çıxır. Xalq dirçəldikcə "tariximizə mikrob kimi ələnən" Səhl-Sumbatlar yadlarla dilləşib onu başından batırır. Bu səbəbdəndir ki, "Satqınların hiyləsindən neçə kərə
Tarix endi zirvələrdən dərələrə".

Adamlar arasında ayrıntı və insanın içində yaranan çat Vətən torpağının da parçalanmasına bünövrə olur: demək, Torpağın bütövlüyü, toxunulmazlığı üçün ən əvvəl milli-mənəvi bütövlüyə - xalqın qəlb və ruh birliyinə nail olmaq lazımdır. Bu xalqın qəhrəmanları var, ancaq insan öz adi sənəti ilə də həmin milli-mənəvi bütövlüyə qovuşa bilər:

***"Kim ki, bu dünyada borcunu anlar,***
***Əmr də, fərman da nə gərək ona.***
***Çəkmə tikməklə də qəlbi yananlar***
***Oğulluq borcunu verər yurduna".***

Bir ölkənin ləyaqətli vətəndaşı olmaq - elə Dünya Vətəndaşlığı üçün də zəmindir. Bütün dünyaya yiyə durmaq istəyən ultramilitaristlər isə qədim dövrlərin fatehlərindən nə təəssüblərinə, nə qəddarlığına, nə də süqutuna görə fərqlənmədilər. Sonuncular bəşəriyyətə daha böyük tələfat verdilər və daha rüsvayçı şəkildə uduzdular. Budur, Londonun Portobello küçəsindəki köhnə bazarda faşist ordusundan qalma medallar satılır:

***"Gümüş xaç nişanı...***
***Parıltısına dikildi həsrətlə çoxunun gözü.***
***Dünən müştəriydi bir millət ona,***
***Müştəri axtarır bu gün o, özü".***

Bütün insana düşmən sistemlərin, çürük ideologiyaların aqibəti belə olub, belə də olacaq...

Dünyanın əbədi varlığı, dəyişməz qanunları müqabilində həris fövqəldövlətçilik iddiaları, həqiqətən, çox əbəs və gülünc görünür:



***"Hər kral "bu dünya mənimdir" - dedi,***
***Təzədən neçə yol bölündü torpaq.***
***Dünyanın sərhədi heç dəyişmədi.***
***Nə böyüdü, nə də kiçildi ancaq..."***

Sənətkarın diqqətində dayanan İnsan və Zaman - onun yaradıcılığında ümumi mücərrəd anlayışlar kimi deyil, konkret, realist təhlilini tapan obrazlar kimi səciyyələnə bilir. Bəxtiyar Vahabzadə ən dolğun şerlərində cəmiyyətin sosial abhavasını, bu günün əxlaq və mənəviyyat qatlarını, bəşəri problemləri, tarixin və çağdaşlığın ortağı kimi - cilalanmış, sınanmış təcrübələrdən dəyərləndirir. Onun lirik-fəlsəfi yaradıcılığına mövqe və dünyagörüşü aydınlığı, konsepsiya tamlığı, poetik-həyati əqidənin dəyişməzliyi xasdır. Bəxtiyarın şerlərində olumların fəlsəfi mahiyyəti həm əbədiyyət qanunlarından, həm də bitkin zaman və məkan sferasından çıxış edilərək aşkar olunur və nəticədə o, şairin estetik idealı tərəfindən aydın, qəti şəkildə ya inkar, ya təsdiq edilir. Burada dünyanı öyrənən idrakın özü öyrənilir, "sirlər dünyasına yol açan kamalın" - külli-aləmi suallara tutan idrakın özü suallar qarşısında qalır. Bəxtiyar Vahabzadə fəlsəfi lirikanın gözəl nümunəsi olan "Düşüncə" şerində sanki bütün varlığın gərgin, coşqun bir düşüncəyə qərq olmasını simvolik tərzdə təsvir edir:

***"Kal alma kimi bir üzü torpağa düşüncə***
***Gördüm ki, yatır hər otun altında düşüncə.***
***Göylərdə fələklər düşünür,***
***Yerdə çiçəklər,***
***Gördüm düşünür güllərə qonmuş kəpənəklər.***
***Hər şey yaranıb***
***Varlığa çevrilmədən öncə***
***Başdan-başa sirli, müəmmalı düşüncə..."***

Bu mürəkkəb şerdir, şübhəsiz, onun başqa izahları, açmaları da ola bilər. Ancaq yəqin maddi və mənəvi aləmlər arasındakı hüdudları "silməklə" - şairin məqsədi odur ki, İnsan - Dünya münasibətlərinin ən incə, sezilməz nöqtəsinə - gerçəyin rüşeym ilkinliyinə və onun "varlığa çevrilmədən öncəki" halına fikri, xəyalı nüfuz etdirsin. Buradakı müəmmalar burulğanından isə təxəyyülün dərinliklərə doğru dayanılmaz cəfalı yürüşü başlanır. İnsan nadir hallarda o nöqtəyə varır, vardıqda da mütləq nəsə tapır. Şair dibsizliyə və ənginliyə tuşlanan, daim axtarışda olan idrakın poeziyasını yaradır:

***"Ağıldan fışqıran min-min suallar***
***Gerçəyə açılan pəncərələrdir..."***

Şair anlamaq ehtirasından, sirlər içində boğulmağın, anlaşılmazlıqları açmağın iztirablı həzzindən danışır, bunları təfəkkürün qarşısıalınmaz daxili stixiyası, cəhdi kimi səciyyələndirir. Və nəhayət, insana belə bir vacib, ali sualı vermək zərurətinə gəlib çıxır: "Sən idrakın göylərində hansı qızıl qata çatdın?"

Şair, hadisənin zahiri dəyişkənliyində deyil, daxili dəyişməzliyində mənalar arayır; həmişə özəyə, alt qatda gizlənənə nüfuz edir. Çünki kamil bünövrədən baxdıqda təbii ilə saxtanın fərqi daha aydınlıqla görünür. Sənətkar zəmanə tünlüyündə müasirinə Nəsimisayaq belə müraciət edir: "Mənə zatındakı ağlını göstər!" Yüzilliyimizin həqiqi uğurları ilə öyünməkdə şair haqlıdır. Amma o bunu da görür ki, "müasirləşmə" adına min cür hoqqabazlıqlar edilir. Ümummədəni inkişaf axınında qondarma "yenilikçilik" cəhdləri, dəyişkən dəblər, komfort yumşaqlığı ancaq köksüzləri, dayazları azdıra, şirnikləndirə bilər. "Mədəniyyəti içində daşıyanlar", "məğzini saxlayanlar" isə belə şeylərə ancaq gülə bilərlər. Milli-əxlaqi sabitliyin olmadığı yerdə yad meyllərə uyma həmişə mümkündür. Onlar soyunu, nəslini tanıyan - hardan gəlib hara getdiyini bilən əqidəli insana təsir etməkdə gücsüz və davamsızdır. Əsilli adam Qərbin də əslindən bir şey götürür, bir qədər də dərinləşir, özünün kimliyindən xəbərsizlərsə, heç Qərbi də əməllibaşlı tanımır, onun daim inkişafda olan mədəniyyətinə kor qalır, elmi-texniki tərəqqinin ancaq zahiri tərəflərinə həssas olur, onun bəhrələrinin tör-töküntülərinə göz dikir.

Həyati mənbə, keçəridə əbədini "nişanlamaq" sənətkar üçün hər şeydir. Məsələn, o, adicə olaraq piyada ilə sərnişini müqayisə etdikdə də, buradan bədii-fəlsəfi ideyanın toxumlarını yığa bilir; şair göstərir ki, sərnişin, yolu (əlbəttə, burada o, simvolik mənada - həyat yolu mənasında qavranılır) sürətlə gedir, öz fiziki imkanlarını dincə qoyaraq (bəzən öldürərək) gedir, gördükləri bir-birini qaralayıb yox olur; piyadasa yavaş-yavaş, torpağı ayağının altında hiss edəedə gedir, gördükləri yaddaşında sahmanlanır. Sərnişin texnikaya güvənir, piyada ayaqlarına; sərnişin dünya yolunun seyrçisidir, piyada müşahidəçisi: sərnişin, ağır olmasın deyə, dərdini də maşına qoyub daşıyar, piyada ürəyində gəzdirər. Şair ortada bir giriz vurur: "Qəribə dünyadır, sərnişin ilə piyada görüşür mənzil başında" - Onsuz da qəbr evi hamının mütləq "görüş yeri"dir. Bəs dirilikdə onlar necə yaşadılar? - Bu suala məhz əbədiyyət zirvəsindən baxdıqda dürüst cavab vermək olur:



**Rahid Ulusel**
**Fəlsəfə elmləri doktoru, professor**

***"Biri təkər üstə gətirildisə,***
***Birini gətirən ayaqlar oldu.***
***Biri bu mənzildə kirəkeş isə,***
***Biri bu mənzildə sahibkar oldu".***

Elə ictimai, əxlaqi məsələlər var ki, şair onların daha geniş epik təsvirinə ehtiyac duyur: "Atılmışlar" və "Təzadlar" poeması belə bir ehtiyacdan doğmuşdur. "Atılmışlar" - hadisə poemasıdır, "Təzadlar" - problemlər poeması. Qanunsuz doğulduğu üçün ananın tərəddüdlər, iztirablar içində boğula-boğula atıb getdiyi körpə və nankor, qədirbilməz oğulun ucbatından qocalar evinə pənah gətirən ana taleyin gərdişi ilə üz-üzə gəlir. "Anadan yetimlə baladan yetim" bir-birinə isinişib doğmalaşırlar. Şair, oxucusunun diqqətini bu faciəvi tale qovuşqanlığındakı simvolik mənaya yönəldir. O haqlıdır:

***"İnsan möhtac olur başqalarına,***
***Bir ömrün ilk çağı, bir də son çağı".***

Ancaq onun körpəykən və qocalarkən atılması - nəinki insani əxlaqın tələblərinə arxa çevirməkdir, borc duyğusunun yoxalmasıdır, həm də insanın tarixi həyatında nəsli bütövlüyün dağılması, əsl ahəngsizlik deməkdir. Mənəviyyatı isə qanunla, məcəllə hökmüylə saflaşdırmaq olmaz. Buna görə də şair, günahkarların inzibati məhkəmə ayağına gəlməsini yox, ürəyin haqq divanına çəkilməsini istəyir.

Altmışıncı illərin ortalarında yaranmış "Təzadlar" poeması bu gün zəmanəmizdə baş verən hadisələrlə necə də səsləşir! O, silahlandıqca silahlanan, millətləri quru çörəyə möhtac edən "imperatorların" qlobal siyasi fırıldaqlarını, elmi-texniki kəşflərin ağzını hərbə döndərmək, dirçələn xalqların azadlıq, müstəqillik istəklərini boğmaq niyyətlərini, irqi-dini ayrı-seçkiliyi ümumbəşəri tərəqqiyə misilsiz zərbə kimi kəskin ifşa edir. Burada şairin ən kəsərli silahı - sözdür, şərin iç üzünü açan, böyük həqiqəti ilğım içindən, min cür kələk içindən arıdıb seçən söz və onun təkzibedilməz məntiqi.

***Gedər ağızlardan dad da, ləzzət də,***
***Ağıl da, ürək də gülər arzuya.***
***Azadlıq olmayan bir məmləkətdə***
***Həqiqət riyadır, ədalət boya!***
***İdrak da boğular, söz də, sənət də,***
***Ağıl kilidlənər dildə, dodaqda;***
***Azadlıq olmayan bir məmləkətdə***
***Nadan başda gəzər, aqil ayaqda.***

Şair, insan həyatındakı harmoniyanın pozulmasından dramatik-faciəvi lövhələr yaradır. Əsrin ideologiya və siyasət toqquşmalarına coşqun etirazlı patetik münasibət, adi həyatın qatlarına endikcə təmkinləşir, durulub səngiyir... Kiçik şerlərindən tutmuş monumental mənzum dramaturgiyasına qədər Bəxtiyar Vahabzadənin bütün yaratdıqlarına çıraq olan Amalsa heç zaman dəyişməyib: O - Vətən təəssübkeşliyi, Vətən uğrunda mücahidlik, haqq savaşıdır.

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***